***Mətanət YAQUBQIZI***
*Filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun*
*Mifologiya şöbəsinin aparıcı elmi işçisi*
*matanatyaqubqizi@gmail.com*
*/orcid.org/0000-0002-7962-0020*
*https://doi.org/10.59849/2309-7922.2025.2.38*

# BƏDNƏZƏRDƏN QORUNMANIN SİMVOLİKASI

**Xülasə**

İnsanlar daim bədnəzərə həddindən artıq önəm vermişlər. Bu, folklor örnəklərində də özünü göstərməkdədir. Bədnəzərlə bağlı inanca və onun müvafiq simvolikasına folklorda ən qədim dövrlərdən rast gəlinir. Belə ehtimal edilir ki, bədnəzər və ya gözdəymədə insan qarşı tərəfdəki insana, əşyaya və ya varlığa pis niyyətlə baxaraq ona mənfi enerji ötürür və bunun nəticəsində həmin insana, əşyaya və varlığa zərər verir.

Yunan mifologiyasında gözləri ilə hər kəsi daşa döndərən ilan saçlı Meduzadan, eləcə də hər şeyi nəzarətdə saxlaya bilən yüz gözlü Arqosdan bəhs olunur. Misir mifologiyasında bir gözü Günəş, bir gözü Ay olan və bütün dünyaya daima nəzarət edən Horusdan danışılır. German-skandinav mifologiyasında sağ gözü ilə kainatın bütün sirlərini öyrənmək üçün hər cür əzaba hazır olan baş Tanrı Odın haqqında çoxsaylı mif, əfsanə və rəvayətlər var. Qədim şumerlər qeyd edirlər ki, öz gözləri və baxışı ilə suyu quruda bilən insanlar mövcud olmuşdur.

Bədnəzərin mənfi enerjisi gözdən ötürüldüyü üçün ondan qorunma vasitələrinin hamısında "göz qaytarmaq" funksiyası olduğu ehtimal edilir. İnsan gözdən ötürülən bu enerji ilə qarşısındakına mənfi təsir edə bilir. Odur ki, həmin bu mənfi enerjinin təsiri altına düşməmək üçün müxtəlif vasitələrdən istifadə olunub və onlardan bəziləri bunlardır: göz muncuğu, nal, gümüş, sancaq, soğan, sarımsaq, yumurta, üzərlik, duz, kəllə sümüyü, ilan qabığı, dağdağan, amulet, istiot. Bu gün də bu davranışlardan bəzilərinə rast gəlinir. Bundan başqa qurban kəsməklə və başqa vasitələrdən də istifadə etməklə insanlar sanki bir hüzur tapır, rahatlanırlar.

**Açar sözlər:** gözdəymə, aura, göz muncuğu, üzərlik, dağdağan

***Matanat YAGUBGIZI***

## SYMBOLISM OF PROTECTION FROM THE EVIL EYE

**Summary**

People have always attached great importance to the evil eye. This is reflected in folklore. Beliefs about the evil eye and the corresponding symbolism have been found in folklore since ancient times. It is believed that the evil eye or a person with an evil eye looks at another person, object or creature with evil intentions, transmitting negative energy to them and, as a result, causing harm to

this person, object or creature.

Greek mythology tells of the snake-haired Medusa, who turns everyone to stone with her gaze, as well as the hundred-eyed Argos, who can control everything. Egyptian mythology tells of Horus, who has one eye - the Sun, and the other - the Moon, and who tirelessly watches the whole world. In Germanic-Scandinavian mythology, there are many myths, legends and tales about the supreme god Odin, who is ready for any torment in order to learn all the secrets of the universe with his right eye. The ancient Sumerians noted that there were people who could dry up water with their gaze. Since the negative energy of the evil eye is transmitted through the eye, it is believed that all means of protection against it have the function of “evil eye aversion”. A person can negatively influence a person in front of him using this energy transmitted through the eye. Therefore, various means were used to protect against negative energy, such as: beads from the evil eye, horseshoes, silver, pins, onions, garlic, eggs, uzarlyk, salt, skulls, snake shells, dagdagan, amulets, pepper. Some of these customs are still found today. In addition, animal sacrifices and other means seem to help people find peace and tranquility.

**Keywords**: evil eye, aura, eye bead, peganum, celtic

***<u>Матанат ЯГУБГЫЗЫ</u>***

## СИМВОЛИКА ЗАЩИТЫ ОТ СГЛАЗА

### Резюме

Люди всегда придавали большое значение дурному глазу. Это отражено в фольклоре. Поверья о дурном глазе и соответствующая символика встречаются в фольклоре с древнейших времён. Считается, что дурной глаз или человек с дурным глазом смотрит на другого человека, предмет или существо со злыми намерениями, передавая им негативную энергию и, как следствие, причиняя вред этому человеку, предмету или существу.

Греческая мифология повествует о змееволосой Медузе, которая своим взглядом обращает всех в камень, а также о стоглазом Аргосе, который может всем управлять. Misir mifologiyasında bir gözü Günəş, bir gözü Ay olan və bütün dünyaya daima nəzərət edən Horusdan bəhs olunur. Египетская мифология повествует о Хорос, у которого один глаз – Солнце, а другой – Луна, и который неустанно наблюдает за всем миром. В германо-скандинавской мифологии существует множество мифов, легенд и сказаний о верховном боге Одине, который готов на любые муки, чтобы познать все тайны мироздания своим правым глазом. Древние шумеры отмечали, что были люди, способные своим взглядом иссушать воду. Поскольку негативная энергия сглаза передаётся через глаз, считается, что все средства защиты от него выполняют функцию «отвращения сглаза». Человек может негативно влиять на человека, находящегося перед ним, используя эту энергию, передаваемую через глаз. Поэтому для защиты от негативной энергии использовались

различные средства, такие как: бусины от сглаза, подковы, серебро, булавки, лук, чеснок, яйца, узарлык, соль, черепа, змеиные панцири, дагдаган, амулеты, перец. Некоторые из этих обычаев встречаются и сегодня. Кроме того, жертвоприношения животных и другие средства, по-видимому, помогают людям обрести мир и спокойствие.

**Ключевые слова**: сглаз, аура, глазная бусина, пеганум, селтик

Mövcud gerçəklik faktları və obyektləri müxtəlif insanlar tərəfindən müxtəlif şəkildə qavranılır, dərk olunur və ifadə edilir. Bunun səbəbinin bir çox hallarda insanların beyninin düşüncə kütləsindən, intellektindən asılı olduğu qeyd edilir. Ona görə ki, insanlar zahirən müxtəlif olduğu kimi, onların düşüncə tərzləri də müxtəlif ola bilir. Lakin buna baxmayaraq, bu düşüncə tərzlərinin əsasında bir mənşədən qaynaqlanan – ortaq əski inanc durur. Bütün inancların əsasında isə real həyat faktları və gerçəklik durur.

Nümunələrdən də göründüyü kimi, inanclar əsasında formalaşan bütün sınamaların kökündə gerçəklik əsasında formalaşan əski inanclar durur. Yalnız inanclar, alqış və qarğışlar deyil, bir çox müxtəlif janrlardan olan folklor örnəkləri də ilkin gerçəkdən, həqiqətdən qaynaqlanır. Psixoloji araşdırmalar belə deməyə əsas verir ki, ilkin inanclar əksərən (bəlkə də istisnasız olaraq) sınanaraq təcrübədən keçirilmiş adi həyat hadisələri ilə bağlı olmuşdur. Bu nümunələrin də əsasında müəyyən mənada real fakt durur.

İnsanlar daima bədnəzərə həddindən artıq önəm vermiş və bu özünü folklor örnəklərində də göstərməkdədir. Ancaq bunu qeyd etmək istəyirik ki, bədnəzər adlandırdığımız bu "gözdəymə" birinci növbədə "aura" ilə əlaqəlidir.

Hər bir şeyin enerjisi vardır. Bu baxımdan otağın da aurası vardır. Otaqdakı əşyaların... yerləşməsi müəyyən enerji harmoniyası yaradır. Bunu öyrənən xüsusi sahə vardır ki, bu, Fen-suy adlanır. Bu sahəyə görə qalan enerji harmoniyası insanı yorduğu üçün əşyaların... yerini tez-tez dəyişdirmək lazımdır" (Bax: 8). "Aura enerji və informasiya axınını nəinki qəbul etmək, hətta toplayıb ötürmək qabiliyyətinə də malikdir. Deməli, insanların auraları qarşılaşarkən, onlar özləri də bilmədən informasiya mübadiləsi edirlər" (Bax: 6). Onlar istər müsbət, istərsə də mənfi enerjilərini bir-birilərinə ötürürlər. Mənfi enerjinin təsiri ötürüləndə qarşı tərəf pis hallar keçirir ki, insanlar da bunu "bədnəzər" adlandırmış və buna qarşı müxtəlif tədbirlər həyata keçirirmişlər. İnsanlar gerçəklik obyektinin yerləşdiyi mühiti dəyişmiş və istədikləri nəticəni də əldə etmişlər.

"Antipatiya" deyilən bir hiss vardır ki, çox vaxt onun yaranma səbəbi ümumiyyətlə, bəlli olmur. Məsələn, bəzən həyatımızda ilk dəfə gördüyümüz bir insan bizə heç nə etməsə də, biz ondan qaçmaq, uzaqlaşmaq istəyirik. Həmin şəxs bizə ən xoş sözlər söyləsə belə, biz ona sərt cavab veririk və bunun səbəbini çox vaxt özümüz də bilmirik. Belə hesab edirik ki, bu kimi davranışların səbəbi "əks yüklü auraların toqquşması" ola bilər.

X əsr ərəb səyyahı alim İbn Fədlan ağac parçasını boyunlarından asmış başqırdlardan, qıpçaqlardan bunun səbəbini soruşduqda belə cavab alır: ”Mən ağacdan doğulmuşam, mən ağacdan başqa özgə yaradan, yaradıcı tanımıram”... Uşaqları, hətta heyvanları şər ruhdan qorumaq üçün boyunlarından dağdağan ağacının parçasını asardılar. İnanırmışlar ki, bu “gözəl, böyük ağac” qəbilənin, soyun, xalqın qoruyucusudur (Bax: 4).

Bəs göz simvolu nədir və bədnəzərlə nə əlaqəsi vardır? Göz simvolu hələ qədim dövrlərdən mövcud olmuş və qoruyuculuq mahiyyəti daşıyan bir simvoldur. Bədnəzər isə bir insanın hədsiz dərəcədə qarşı tərəfdəki insana pis nəzərlə baxması nəticəsində ötürdüyü enerjidir. Bədnəzər gözdən çıxan mənfi enerjidir. Yunan mifologiyasında gözləri ilə hər kəsi daşa döndərən ilan saçlı Meduza, yüz gözlü Arqos, Misir mifologiyasında gözü ilə bir şeyi gözündən iraq qoymayan, iki gözü Günəş və Ayı təmsil edən Horusun gözü, german - skandinav mifologiyasında sağ gözü ilə kainatın bütün sirlərini öyrənmək üçün hər cür əzaba hazır olan baş Tanrı Odın, hətta qədim şumerlərə görə öz gözləri ilə suyu quruda bilən insanlar mövcud olmuşdur. Yunan və Roma mifologiyasında Göz – Tanrıların gözü hər şeyi görən və bilən gücün simvolu kimi qəbul olunurdu.

Roma mifologiyasında Göz simvolu döyüşdə qələbəni, Tanrıların himayəsini təmsil edən bir vasitə kimi qəbul olunurdu. Hətta döyüşçülərin qalxanında pis ruhları, düşmənləri uzaqlaşdırmaq üçün Göz fiquru qabardırdılar ki, bu da onları şərdən qoruyacaq amulet məqsədi daşıyırdı (Bax: 9).

Göz, dünya mifologiyasında çox zəngin və mürəkkəb bir simvoldur. Onun mənası, mədəniyyətdən mədəniyyətə dəyişsə də, əsasında qoruma, güc kimi ortaq motivlər dayanır.

Bütün sahələrdə göz obrazı, gözün mənası çox mühüm yer tutur. İnsan bədəni ilə xarici dünya arasında əlaqəni gözləri sayəsində qurur. Mif və nağıllarda insan böyük bir günah işlətdikdə gözünü itirir, üçüncü gözü açılanda isə hikmət qazanır.

Bədnəzər gözdən ötürüldüyü üçün bədnəzərə qarşı qorunma vasitələri də göz formasında olub, “göz qaytarmaq” funksiyasını daşıyır.

Qeyd etdik ki, insan gözdən ötürülən bu enerji ilə qarşısındakına təsir edə bilir. Odur ki, insanlar bu mənfi enerjinin təsiri altına düşməmək üçün müxtəlif vasitələrdən istifadə edirdilər. Bədnəzərdən qorunmaq dünya xalqlarının inanclarında çox geniş yayılmış qədim bir ənənədir.

İnsanlar həyatda hansısa bir qəza, uğursuzluqla qarşılaşırsa, bunun səbəbini bədnəzərlə bağlayır. Odur ki, bədnəzərdən qorunmaq üçün göz muncuğu, nal, gümüş, sancaq, soğan, sarımsaq, yumurta, üzərlik, duz, kəllə sümüyü, ilan qabığı, dağdağan, amulet taxmaq, istiotdan, heyvan kəlləsindən istifadə, qurban kəsmək[1] və s. vasitələrdən istifadə etməklə insanlar sanki bir hüzur tapır, rahatlanır.

[1] *İnsanlar qurbankəsmə ritualının şər ruhlardan qoruyacağını, onu əhatə edən kosmosun nizamını saxlaya biləcəyini düşünürdü (Bax: 2).Məhz buna görədir ki, əski insan ipəkqurdları təzə çıxanda*

Folklor örnəklərinə nəzər saldıqca insanların bədnəzərə necə inandıqlarının şahidi oluruq. Əski çağlardan gəlinlərin üzünün örtülməsi, ananın və təzə doğulan körpənin 40 gün yad nəzərlərdən uzaq tutulması və s. bədnəzərdən qorunmağın bariz nümunəsidir.

Baramaçılıq sahəsinə aid olmaqla bədnəzərlə bağlı çoxsaylı inanclar mövcuddur. Bu baxımdan Şəki-Zaqatala folklorunda mövcud olan bir neçə inanc nümunəsini söyləmək yerinə düşər: Baramaqurdu ağarmağa başlardısa, udilər bunu qurdun gözə gəlməsi kimi qəbul edirdilər. Ona görə də bir parça qızdırılmış kömürü içərisində su olan piyaləyə salıb baramanın üstünə gəlmiş adamların adını çəkərdilər. Kömür kimin adı çəkiləndə suyun dibinə batardısa, bununla da baramanın onun tərəfindən gözə gəlməsini müəyyən edərdilər. Bundan sonra kömür parçasını əzib küçəyə atar və yaxud kömürdən kümxananın qapılarına xaç çəkib, suyu küçəyə atardılar.

İpəkqurdu bəslənən yerdə – çardağın dirəyində dəlikli daş asardılar. İnanardılar ki, bu dəlikli daş ipəkqurdunu pis gözdən, xata-baladan qoruyacaqdır. Bu daşa "baramadaşı" da deyirdilər. Bəzən kümxananın qarşısında ev heyvanının kəlləsini asır, yaxud ön dirəyə nal, ağ soğan asardılar.

Əski inanclara uyğun olaraq "gözdəymədən", "bədnəzərdən" qorunması nəzərdə tutulan obyekt üzərinə müəyyən əşyalar asılırdı və bunun izləri hələ də qalmaqdadır. Burada asılan dəlikli daş gözün simvoludur. Dirəkdən asılan kəllə, nal və ağ soğan, əslində, bəd gözlərdən qorunması lazım gələn əsas obyektdən bədnəzərin diqqətini yayındırmağa xidmət edən əşyalardır.

Ümumiyyətlə, biz bu fikirdəyik ki, istənilən inanc öz başlanğıcını həyat reallıqlarından alır. Hətta belə də deyə bilərik ki, həyat reallıqları rəmzləşərək folklor materialları çərçivəsində simvollara çevrilir, yəni gerçəkliklər simvollaşır. Doğrudur, bunun əksini iddia edənlər də var. Yəni folklor simvollarının real həyatda öz əksini tapdığını qeyd edənlər də var. Zahirən bizim fikrimizin əksi kimi səslənən bu mülahizə, əslində bizim fikrimizin ikiqat sübutudur. Yəni reallıqdan yaranmış simvolun yenidən reallıqda öz əksini tapması təbii bir haldır.

Başqa bir nümunədə: Qəbələnin Nic kəndindən toplanmış bir folklor örnəyində baramaqurdunu bədnəzərdən qorumaq üçün maraqlı bir ayin həyata keçirərdilər: İpəkqurdu toxumlarını bir yaylığa büküb, xəlbirə qoyardılar. Bura həmçinin yumurta və polad parçası da qoyulardı. Sonra ipəkqurdlarının bir hissəsini müqəddəs Yelisey kilsəsinə aparardılar. Burada dini ayini icra edib ətirli qətran və şam yandırardılar. Hədiyyə adı ilə yumurta və bir az pul verilər, qalanlarını evə gətirərdilər. Bununla da yetişdiriləcək baramanın bədnəzərdən qorunduğu güman edilərdi.

Bədnəzərlə bağlı Qəbələ rayonunun Vəndam kəndindən toplanmış gerçək-

---

*onların bir hissəsi "qırıldı" bəhanəsi ilə ayırıb gözə gəlməmək üçün başqa gizli bir yerdə baxır, yemləyirdilər və həmin qurdlardan alınan baramanı satırdılar. Bu pula qoyun alıb qurban kəsirdilər.*

liklə səsləşən bir ləzgi nümunəsi maraq doğurur: "Günlərin bi günü atın belində gedirdim. Qayim kişi deyən bir dənə bednazar[1] vardı. Gözü daş dələrdi. Məni görüb dedi ki, bax, əsil ləzgi belə olar, ha! Bu sözü deyən kimi atın başından xəndəyə düşdüm."

Zaqatalanın Əliabad kəndindən toplanmış bir inanc nümunəsi vardır ki, bu inanc bu və ya digər şəkildə bütünlükdə Şəki-Zaqatala bölgəsində özünü göstərməkdədir: Yumurtanı qabın içərisinə qoyursan, o evdə bədnəzər varsa, o yumurta çatlayacaq. Tərəvəzə, evlərin tirlərinə pis nəfsdən, pis nəzərdən qorunmaq üçün quru heyvan kəlləsi, ceyran kəlləsi, qırmızı istiot, yumurta qabığı (qoruyucu gücü təmsil edir) keçirərdilər ki, bu da pis nəzəri, şəri udan totem (talisman-amulet) kimi qəbul edilir.

Hər halda qədim insanın bu əşya-totemlərin şəri udmaq və ya dəf etmək xüsusiyyətinə inandığı şübhəsizdir. Onlar bu vasitələrdən pis ruhları zərərsizləşdirmək üçün istifadə edirdilər.

Qəbələdə udi toy adət-ənənələrində gəlin oğlan evinə ayaq basmamış belə bir qayda var idi ki, bəyi bədnəzərdən qorumaq üçün heyvan kəlləsindən – "əjdaha"dan istifadə edərdilər. Buna görə də ətraf ağaclardan birinə "əjdaha"nın rəmzi kimi heyvan kəlləsi[2] asar və növbə ilə cavanlar şər qüvvəni yox etmək üçün, bədnəzərdən qorunmaq üçün atəş açardılar. Bu ritualda heyvan kəlləsindən istifadə bədnəzərdən qorunmanı, gücü, həm də yeni dünyaya keçidi təmsil edərdi. Bundan başqa oğlan evinə gətirilən gəlin qapıdan içəri keçəndə ayağı altına boşqab qoyardılar. Gəlin bu boşqabı qırmalı idi. Onun bu boşqabı qırması da pis enerjidən təmizlənmək, bədnəzəri yox etmək məqsədi daşıyırdı.

Camaat arasında həm canlı, həm də cansız cisimləri pis gözə gəlməzdən əvvəl bədnəzərdən qorumaq üçün müxtəlif adətlər mövcuddur. Mavi şüşənin pis gözü dəf etdiyinə və zərərsizləşdirdiyinə inanılardı. Mavi muncuq[3] (göz muncuğunun rəngi mavidir, bu rəng gözdən gələn şüaları özlərinə doğru çəkərək pis nəzəri zərərsizləşdirir.), dəlikli daş, soğan, sarımsaq, yumurta qabığı, maral buynuzu, qara zirə, quru mixək və s. bu kimi vasitələrin nəzər dəyəndə çatladığına, yaxud da itməsinə inanılardı.

Bəzi türk evlərinin bağçasına tısbağa qabığı və qurbağa qabığı asılır. Tısbağa qabığının gözə bənzəməsi ondan amulet kimi istifadə edilməsinə səbəb olmuşdur. Evlərin qapısına qoç buynuzu, dəlikli daş asardılar. Heyvanları qorumaq üçün boyunlarından zınqrov asardılar. Zınqrov səsləndikcə diqqəti özünə çəkir, nəzəri uzaqlaşdırardı (Bax: 7).

---

[1] *Bədnəzər*

[2] *İngiloylarda udilərdən fərqli olaraq ağacın başına alma keçirilmiş olur. Burada alma bədnəzəri simvolizə edir.*

[3] *"Muncuq" sözünü Mahmud Kaşqarlı "Divanü Lügət-it-Türk" kitabında işlətmişdir: "Monçuk, boncuk, süs için boyuna takılan değerli taşlar"-I, (Ə: 3)*

Bədnəzər inancı bu gün də bütün dünya mədəniyyətlərində mövcuddur. Bədnəzərə qarşı görülən tədbirlər mədəniyyətdən mədəniyyətə fərqli olsa da, bu sahədə insanların keçirdiyi ortaq rituallar Allahın adını və ya müəyyən qoruyucu ifadələri zikr etmək, müəyyən dua cümlələrini oxumaq, gözmuncuğundan istifadə etməkdir. Hindistanın bəzi yerlərində evlənən cütlüklər bəd nəzərlərdən qorunmaq üçün oğlan qızın, qız oğlanın paltarlarını geyinirlər. Alınlarının ortasına qara xal qoyardılar ki, bu da bədnəzərə qarşı bir vasitədir. Bəzi Asiya cəmiyyətlərində isə uşaqların göz ətrafına qara boya çəkilir (Bax:11). Azərbaycan türklərində də uşaqları nəzərdən qorumaq üçün alınlarına kömür sürtülməsi halı mövcuddur.

Ərəblər ilan, it, tülkü, tovuz quşu kimi canlıların pis gözünün təsirli olduğunu və hətta dəvənin göz təmasının güclü nəzər olduğunu qəbul etmişlər. Ərəblər bədnəzərdən qorunmaq üçün atların boynuna ağ muncuq, uşaqlara qara muncuq, boyunlarına boyunbağı taxır, biləklərinə düyünlü kəndirlər bağlayardılar (Bax: 10). Beləliklə, gözdən gələ biləcək enerji cərəyanı gözdən qorunmaq üçün istifadə olunan vasitələrdə əks olunur və onun gücü qırılır, bədnəzər zərərsizləşdirilir və insanlar da bundan rahat olur.

İnsanların bəd nəzərdən qorunmaq üçün istifadə etdiyi rituallardan biri də qurğuşun tökmə adətidir. Bu ritualı həyata keçirən insanlar xəstənin başı üzərindən əridilmiş qurğuşunu duzlu su ilə doldurulmuş mis qaba tökərək qurğuşunun yaratdığı şəkilləri şərh edərək həyata keçirirdilər. Çox maraqlı faktdır ki, göz muncuqları hazırlayarkən onların içinə qurğuşun tökülür və bunun da uğur gətirəcəyinə inanılırdı.

Bütün deyilənləri nəzərə alaraq bədnəzərdən qorunma yollarının ardıcıllıqla belə düzmək olar:

1. Göz muncuğu
2. Dağdağan ağacı
3. Üzərlik. Üzərlik bədnəzərdən qorumaq məqsədi ilə evlərdə və ya insanların üzərində gəzdirilir. Hətta bu məqsədlə yaranan şeir nümunələri də bunu sübut edir:

Üzərliksən havasan,
Hər bir dərdə davasan.
Səni dərman deyiblər,
Qada-bala sovasan.
Bizim evdə qalasan,
Üzərlik burda partlasın,
Yaman gözlər çatdasın.

İnsanlar bədnəzəri yox etmək üçün üzərliyi yandırıb:

Üzərliyim tüstüdən,
Bədnəzəri kor elə
Qohum olsun, ya özgə,
Qoy qapıdan girməsin.

4. Duz. Duz evlərin künclərinə səpilir. Başdan fırladılaraq "pis gözlər çıxsın" sol çiyinə tüpürərək duzu isti ocağa atırlar.
5. Yumurta, qabığı
6. Gümüş
7. Quru heyvan kəlləsi
8. İlan qabığı
9. Nal
10. Qurban kəsmək
11. Dualar və ayələr

**Nəticə:** Bədnəzər mövcuddur. Tibb elmi də sübut etmişdir ki, selenin gözdə çoxluğunun qarşı tərəfə birbaşa təsiri yoxdur. Ancaq əgər selenin miqdarı həddindən artıq çoxdursa, bu zaman qarşı tərəf də bu vəziyyətdən mənfi təsirə məruz qala bilər. İnsan baxış və düşüncələri ilə hətta insanı öldürə bilər. Bir insan başqa birisinin uğurunu həzm eləyə bilməz, bunun nəticəsində qarşı tərəfə mənfi enerji ötürə bilər.

## ƏDƏBİYYAT

1. Azsaylı xalqların folkloru, I kitab, Bakı, Elm və təhsil, 2014, 204 səh.
2. Əliyev Ramil. Mif və folklor: Genezisi və poetikası. Bakı-"Elm"-2005, 222 səh.
3. Kaşkarlı Mahmud "Divanü Lügət-it-Türk", 475;II, 123;III, 121
4. Seyidov Mirəli. "Qızıl döyüşçü"nün taleyi, Bakı, "Gənclik", 1984, 108 səh.
5. Yaqubqızı Mətanət. Azərbaycan folklorunda tolerantlıq və multikulturalizm (Şəki-Zaqatala bölgəsində yaşayan xalqların və etnik qrupların folklor örnəkləri əsasında). Bakı, "Elm və təhsil" nəşriyyatı, 2016, 184 səh.
6. bona-mente.az
7. file:///C:/Users/Mayil/Desktop/Nazar.pdf
8. news.milli.az
9. https://www.idildergisi.com
10. https://islamansiklopedisi
11. https://tr.wikipedia.org/wiki/Nazar